AZƏRBAYCAN BAROMETRİ / 12

Sentyabr 2020

STM

# "Azərbaycanda əhalinin cinayət və qanunazidd digər hərəkətlərdən zərər çəkməsi və aidiyyəti qurumlara müraciəti



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
Onikinci buraxılış

Sentyabr 2020

# Azərbaycanda əhalinin cinayət və qanunazidd digər hərəkətlərdən zərər çəkməsi və aidiyyəti qurumlara müraciəti

**ANALİTİK HESABAT**
*/Viktimoloji tədqiqat - ictimai rəy sorğusunun nəticələri əsasında/*


**Müəllif:**
İnqilab Şahbazov
İctimai rəyin öyrənilməsi departamentinin
baş məsləhətçisi

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti



Bakı - 2020

“Azərbaycan barometri” jurnalı 06 avqust 2019-cu il tarixində
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində
4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Redaktor:**
Aqşin Məmmədov,
*filologiya üzrə fəlsəfə doktoru*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

ŞƏRQ - QƏRB

“Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

# MÜNDƏRİCAT

**İcmal**........4
**Giriş**........5
**Tədqiqatın metodoloji prinsipləri**........8
**Sorğunun nəticələrinin təhlili**........9
1. Cinayətdən zərərçəkmə........9
1.1. Cinayətin təsirləri........11
1.2. Cinayəti kim törədib?........11
2. Hüquq-mühafizə orqanlarına və məhkəməyə etibar........12
3. Cinayət barədə hüquq-mühafizə orqanlarına və məhkəməyə müraciət........12
3.1. Şikayət və nəticədən razılıq dərəcəsi........13
3.2. Şikayət etməməyin səbəbləri........13
4. Şəxsi təhlükəsizlik (mənzilin infrastrukturu)........13
5. Şəxsi təhlükəsizlik (mənzildən kənarda)........14
**NƏTİCƏ və TƏKLİFLƏR**........17

# İCMAL

Sorğuda 1214 respondent təsadüfi qaydada seçilib. Sorğu mobil və stasionar telefon nömrələrinə edilən zənglər vasitəsilə aparılıb.

Əhalinin 81.5%-i son 3 il ərzində hər hansı bir cinayət əməlindən zərər çəkmədiyini bildirib. Bu da Azərbaycanda kriminogen vəziyyətin dəyərləndirilməsi baxımından müsbət haldır. Son 3 il ərzində cinayətdən zərərçəkənlər (18.5%) arasında keyfiyyətsiz qida və ya içki almaqdan zərərçəkmə ən geniş yayılan əməldir (7.7%). Maliyyə dələduzluğundan, eləcə də oğurluqdan zərərçəkənlərin göstəriciləri müvafiq olaraq 5.3% və 4.8% təşkil edib. Dövlət məmurunun, həkim, polis və ya müəllimin rüşvət tələb etməsi halı ilə 4.5% respondent son 3 il ərzində üzləşib. Fiziki hücuma məruz qalanlar isə seçmənin 1.2%-ni təşkil edib.

Oğurlanmış əmlaklar arasında pul ən çox oğurlanan əmlak kimi qarşıya çıxır (29.3%).

Rüşvət tələbi ilə üzləşənlərin cavablarına əsasən, bu hala ən çox səhiyyə (37%), polis (20.4%) və təhsil (18.5%) sahələrində rast gəlinib.

Cinayət hallarının 62.5%-də cinayətkar şəxs yad adam olduğu halda, 12.5% göstərici üzrə əməli törədənin tanış adam olduğu müəyyən edilib. Qanun pozuntularının 18.3%-də cinayətkar hələ ki müəyyən edilməyib.

Cinayətdən zərərçəkənlərin müvafiq olaraq 48.7% və 42.4%-i çox və ya müəyyən dərəcədə maddi itki və psixoloji travmadan zərər çəkdiyini bildirib. Hüquq-mühafizə orqanları və məhkəmə sahəsində əhali arasında ən yüksək inam polisədir - 45.1%. Bu qurumlara etibar etməyənlərə gəlincə isə məhkəmələr mənfi mənada irəlidədir - 46%. Nəzarətedici funksiyanı yerinə yetirən agentliklərə 35.4% çox etibar etsə də, 40.7% etibar etmir.

Cinayətdən zərər çəkdikdən sonra 224 nəfərin 38%-i bu barədə dövlət qurumu, yaxud məhkəməyə şikayət edib. Beləliklə, son 3 il ərzində baş vermiş və rəsmi qeydiyyata alınan cinayət hadisələrinin sayınınəzərə alsaq, 95% əminlik və 3% xəta dərəcəsi ilə deyə bilərik ki, Azərbaycanda latent cinayətkarlığın səviyyəsi rəsmi cinayətkarlıq statistikasından müəyyən qədər fərqlidir. Bu hal bir sıra inkişaf etmiş ölkələr (məsələn, ABŞ, Kanada və Böyük Britaniyada) üçün də keçərlidir.

Cinayətdən zərərçəkənlərin bu barədə şikayət etməməsinin başlıca səbəbi məsələnin tərəflər arasında həll edilməsi olub (40%).

Xüsusi olaraq zərərçəkənlərə ünvanlanmış digər sualların nəticələrinə nəzər yetirdikdə məlum olur ki, onların əksəriyyəti müraciətlərin nəticələrindən əsasən, yaxud heç qane olmayıblar (65%).

Əhalinin daha çox hissəsinin (70.6%) mənzilində heç bir təhlükəsizlik mexanizmi mövcud deyil. Seyf qapı və dəmir barmaqlıq (pəncərə üçün) ən geniş yayılan təhlükəsizlik mexanizmləri kimi qarşıya çıxır (16.7% və 13.8%).

Əhalinin nəzərəçarpacaq hissəsi (70%) oğurluqla, 85.5%-i isə küçədə gəzərkən fiziki güc tətbiqi ilə üzləşmə ehtimalının olmadığını ifadə edib.

Oğurluğa məruzqalma ehtimalını "çox" dəyərləndirənlərin göstəricisi küçədə gəzərkən fiziki güc tətbiqi ilə üzləşməyə nisbətdə daha yüksəkdir (6.2% və 1.4%).

Şəhər və qəsəbələrdə yaşayanlar oğurluqla üzləşmə ehtimalını kənd əhalisinə nisbətdə daha yüksək dəyərləndirib.

Əhalinin əsas hissəsi (87.9%) küçədə gəzərkən özünü qorumaq üçün xüsusi olaraq hər hansı tədbir görmür.

Qadınların hər hansı özünümüdafiə tədbirinə əl atması ehtimalı daha yüksəkdir. Kənd əhalisinin şəhər və qəsəbə əhalisinə nisbətdə heç bir özünümüdafiə tədbiri görməmək ehtimalı daha yüksəkdir.

Qadınların, təqaüdçülərin, 18-25 və 46-65+ yaşarası kənd və qəsəbə əhalisinin cinayətə məruzqalma riski daha aşağıdır.

## Giriş

Əhalinin təhlükəsizliyinin təminatı hər bir dövlətin əsas vəzifələrindən biridir. Müstəqilliyin əldə edildiyi 1991-ci ildən etibarən Azərbaycan cəmiyyətində kriminogen vəziyyət əsas etibarilə nəzarət altında saxlanılıb. Müharibədən çıxmış bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanda silahlanma səviyyəsi və odlu silahlardan cinayət əməllərində istifadə əhəmiyyətli dərəcədə aşağıdır. 1994-cü ildə imzalanmış “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında” fərman cinayətkarlığa qarşı mübarizədə əsaslı dönüş yaradıb. 25 il əvvəlki dövrlə müqayisədə Azərbaycanda təhlükəsizlik, cinayətkarlıqla mübarizə müsbətə doğru dəyişib.

Ölkəmizdə ictimai təhlükəsizliyin təminatı əsasən arzuedilən səviyyədə olsa da, müstəqillik tarixi ərzində heç bir viktimoloji sorğu aparılmayıb. Bu isə cinayətdən zərərçəkənlərin təcrübələri, hüquq-mühafizə orqanlarının zərərçəkənlərin müraciətlərinə reaksiyası və bütövlükdə, vətəndaşların bir sıra hüquq-mühafizə orqanlarına münasibəti barədə məlumatların olmaması ilə nəticələnir. Bəs viktimologiya nədir?

### Viktimologiya nədir?

Kriminologiya elminin bir hissəsi kimi yaranıb, sonradan təşəkkül tapan viktimologiya elmi (*victima* - latın dilində "qurban verilmək" mənasını verir) əhalinin cinayətdən zərər çəkməsini, bunun həmin şəxs üzərindəki maddi, mənəvi, psixoloji və sosioloji təsirlərini kəmiyyət və keyfiyyət prizmalarından öyrənən sahədir. Viktimologiya cinayət prosesinin bütün mərhələlərinə zərərçəkənin baxış bucağından baxır. Başqa sözlə, bu elm zərərçəkənin bütün proses ərzində təcrübəsini, vəziyyətini və davranışlarını öyrənir. Viktimologiya elmi təşəkkül tapana qədər cinayətkarlıq prosesinin öyrənilməsində əsas diqqət mərkəzində cinayəti törədən şəxs, daha doğrusu, onun sosial-psixoloji profili, ona təyin edilən cəzalar, məhkəmə prosesinin gedişatı və s. kimi amillər dayanırdı. Lakin son illər cinayətin “qurbanları” müfəssəl şəkildə öyrənilməyə başlanılıb ki, bu da çoxlu sayda yeni nəzəriyyələrin meydana gəlməsi, cəmiyyətin zərərçəkənlər barədə təsəvvürlərinin artması ilə nəticələnib.

Viktimologiya elmi sayəsində cinayətdən zərərçəkənlərlə bağlı əvvəllər araşdırılmayan məsələlər ətraflı öyrənilməyə başlanılıb. Cinayət hadisəsinin zərərçəkənlərdə qısa və uzunmüddətli fiziki, psixoloji və maddi fəsadları barədə artıq daha müfəssəl informasiya mövcuddur. Şəxsin məşğuliyyət statusu, psixoloji profili, ailə vəziyyəti və s. kimi amillər də onun postcinayət vəziyyətinə adaptasiyasına təsir edir ki, bu da viktimologiya elmi tərəfindən öyrənilir. Bununla yanaşı, viktimoloji tədqiqatlar elmi əsaslarla sübut etdi ki, eyni cinayətə müxtəlif şəxslər fərqli formalarda reaksiya verə bilərlər. Məsələn, fiziki zorakılığa məruz qalmağın nəticələri gender, maddi gəlir, yaşayış yeri və s. kimi amillər üzrə fərqlənə bilər. Son olaraq isə viktimoloji tədqiqatlar elmə “qurban təqsirləndirmə” (ing. *victim-blaming*) terminini gətirdi ki, bu da bir çox müasir ədalət-mühakimə sisteminin əsas narahatlıq doğuran mənbələrindən biridir.

Elə hallar var ki, zərərçəkən şəxs kənar şəxslər, eləcə də hüquq-mühafizə və məhkəmə orqanları tərəfindən təqsirkar kimi qəbul edilir. Məsələn, Amnesty International təşkilatı tərəfindən 2005-ci ildə aparılmış sorğuda hər üç nəfərdən biri təcavüzkarlıq hallarında qadının da müəyyən qədər təqsiri olduğunu bildirib.[1] Zərərçəkənin təqsirləndirilməsi isə, adətən, yekun məhkəmə qərarının zərərçəkənin nəzərində ədalətli olmaması ilə nəticələnir.

Kriminologiya və viktimologiya elmlərində cinayətin zərərçəkən tərəfindən dərhal hiss edilib-edilməməsindən asılı olaraq, cinayət *gözlə görünən və görünməyən* (ing. *visible and invisible*) növlərə bölünür. Əgər birinci kateqoriyaya törədildiyi zərərçəkən şəxs tərəfindən dərhal anlaşılan əməllər aiddirsə (məsələn, yaralanma, zəhərlənmə, evə basqın və s.), ikinci qrupa gözlə görünməsi daha çətin olanlar (məsələn, ekoloji çirklənmə, haqqın tapdalanması və s.) şamil edilir. Viktimologiya elminin nümayəndələri şəxsin cinayətdən zərərçəkmə riskini də müxtəlif vasitələrlə (modellərlə) ölçür. Burada şəxsin yaşadığı sosial mühit, şəxsin iqtisadi vəziyyəti və s. kimi amillər qarşılıqlı şəkildə öyrənilir. Risklərlə bağlı maraqlı nəticələrdən biri budur ki, risk əhali üzrə fərqlidir. Farrell və Pease (2007) İngiltərə təcrübəsinə əsasən bildirirlər ki, cinayətlərin əksəriyyəti bütün əhalinin olduqca kiçik hissəsinə təsir edir. Bu o deməkdir ki, cəmiyyətdə cinayət hadisələrindən zərər çəkmək ehtimalı olduq-

[1] *Amnesty International (2005) New poll finds a third of people believe women who flirt partially responsible for being raped, 2005. www.amnesty.org.uk/press-releases/uk-new-poll-finds-third-people-believe-women-who-flirt-partially-responsible-being.*

*Cinayətkarlıq statistikası necə formalaşır?*




ca qeyri-bərabər paylanıb.

Viktimologiya elminin cinayətkarlığın öyrənilməsindəki ən böyük töhfələrindən biri viktimizasiya sorğuları olub.

## Viktimizasiya sorğusu və onun faydaları

Cinayətdən zərər çəkmiş şəxslərlə bağlı sosioloji tədqiqatlar dünyada 50 ildən çoxdur ki aparılır. Belə ki, bu cür sorğular ilk dəfə ABŞ-da keçirilməyə başlansa da, daha sonra sürətlə digər inkişaf etmiş ölkələrə yayılıb. 1970-ci illərdə Böyük Britaniya, Finlandiya və Niderlandda da bu qəbildən olan araşdırmaların əsası qoyuldu. Diqqətçəkən məqam odur ki, qısa müddət ərzində həmin ölkələrdə belə bir fikir formalaşdı ki, artıq yalnız hüquq-mühafizə orqanlarının tərtib etdiyi rəsmi statistikaya əsaslanmaq real kriminogen durumun ölçülməsi baxımından düzgün deyil. Viktimizasiya sorğularının müntəzəm təşkili labüddür. Bu cür sorğular əsasən ümumilli səviyyədə təşkil edilsə də, o, lokal səviyyədə də (şəhərin bir bölgəsi, kənd, qəsəbə ) aparıla bilir.

Viktimizasiya sorğuları bütün qanun pozuntularını öyrənməyə cəhd etmir. Onlar bir çox hallarda təcavüz, qanunsuz olaraq narkotik maddə saxlamaq, sahibkarlara qarşı qanun pozuntuları və s. kimi cinayətləri əhatə etmir. Buna görə də viktimizasiya sorğularının özünün də müəyyən çatışmazlıqları var. Lakin elə kriminoloji məsələlər var ki, onların öyrənilməsində bu yanaşma olduqca səmərəlidir. Məsələn, şifahi təhqir, kibercinayətlər, namus cinayətləri, təcavüz və polisə müraciət edilməsi müəyyən dərəcədə utanc hissi yaradan qanun pozuntuları viktimizasiya sorğuları vasitəsilə daha dəqiq ölçülə bilər[2].

Viktimizasiya sorğusunun səciyyəvi xüsusiyyətlərini cinayət hadisəsinin qeydə alınması prosesinin timsalında göstərmək məqsədəuyğun olardı.

Britaniyalı kriminoloqlar Norris və Kolmanın qeyd etdiyi kimi, cinayət əməlinin rəsmi qeydiyyata alınması üçün 2 proses baş verməlidir[3]:

**1)** cinayət hadisəsi baş verdikdə zərərçəkən şəxs bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməlidir, yaxud cinayət hadisəsi hüquq-mühafizə orqanları tərəfindən aşkarlanmalıdır.

**2)** hüquq-mühafizə orqanları həmin müraciət əsasında cinayət hadisəsini rəsmi olaraq qeydə almalıdır.

Bu o deməkdir ki, cinayət əməlinin törədilməsi dərhal onun rəsmi olaraq qeydə alınması ilə nəticələnmir. Başqa sözlə, hər il müəyyən sayda cinayət hadisələri statistikaya düşmür ki, bu da kriminologiya elmində latent cinayətkarlıq adlanır. Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində latent cinayətkarlıq uzun illərdir ki, ölçülür və meydana çıxan nəticələr rəsmi statistikanın problemlərini aşkar şəkildə ortaya qoyur. Latent cinayətkarlığın ölçülməsində bir sıra ölkələrin təcrübəsinə nəzər yetirək.

Böyük Britaniyada vaxtaşırı keçirilən "British Crime Survey" müəyyən edib ki, latent cinayətkarlıq səviyyəsi ilə rəsmi statistika arasında ən azı 2 dəfə fərq var. Belə ki, latent cinayətkarlıq səviyyəsi daha yüksəkdir. Eyni fərq ABŞ-da hər il keçirilən "The National Crime Victimization Survey" tərəfindən də müəyyən edilib. Bir neçə il qlobal miqyasda keçirilmiş, ancaq hazırda dayandırılmış "International Crime Victimisation Survey" sorğusu çərçivəsində Azərbaycan da daxil olmaqla yüzlərlə ölkə əhatə edilib. Həmin sorğuda latent cinayətkarlıqla yanaşı, rəsmi statistikalarda heç də həmişə əks etdirilməyən bir sıra cinayətlər (rüşvət tələb edilməsi, keyfiyyətsiz xidmətin göstərilməsi və s.) barədə də vətəndaşlara sual ünvanlanıb. Son illər ərzində Rusiya, Qazaxıstan və Qırğızıstanda da bir neçə təşkilat tərəfindən analoji sorğular təşkil edilib ki, bu da belə tədqiqatların artıq Müstəqil Dövlətlər Birliyində də yayıldığını göstərir. Maraqlıdır ki, Rusiyanın Daxili İşlər Nazirliyi 2019-cu ildə təqdim etdiyi "Rusiya polisinin fəaliyyətinin qiymətləndirilməsi" adlanan ictimai rəy sorğusunun ən böyük bölməsi əhalinin viktimlik səviyyəsinin/göstəricilərinin öyrənilməsidir[4].

Bəs zərərçəkənlər cinayət barədə hansı səbəblərdən dolayı hüquq-mühafizə orqanlarına müraciət etmirlər? Kriminoloqlar bir neçə səbəb müəyyənləşdiriblər ki, onları da aşağıda təqdim edirik:

*[2]Hoyle, C. (2012) 'Victims, the criminal process, and restorative justice', in M. Maguire, R. Morgan and R. Reiner (eds),The Oxford Handbook of Criminology (5th edn). Oxford: Oxford University press*

*[3]Coleman, C. and Norris, C. (2013) Criminology. London, Routledge*

*[4]МВД России (2020). Общественное мнение. https://xn--b1aew.xn--p1ai/publicopinion*

- Müraciət etmək və onun ardınca gələn proseslərin (məhkəmə, ekspertiza, hüquqi yardım xidməti və s.) vətəndaş üçün maddi cəhətdən əlçatan olmaması, eləcə də uzun çəkməsi;[5]

- Zərəri az olan qanun pozuntularının barəsində müraciət ediləcək qədər ciddi hesab edilməməsi;

- Cinayətkarın zərərçəkəndən qisas almaq ehtimalı (xüsusilə də ailədaxili zorakılıq hallarında bu amil aktual olur);[6]

- Cinayət barədə müraciətin hansı orqana hansı formada edilməsi barədə məlumatsızlıq (məsələn, bu hal maliyyə cinayətlərində tez-tez müşahidə edilir)

- Zərərin hər hansı formada müraciət edilmədən cinayəti törədən tərəfindən kompensasiya edilməsi;

- Məsələnin tərəflər arasında qarşılıqlı razılıqla həll edilməsi.

## Azərbaycanda viktimizasiya

Dövlət Statistika Komitəsinin (DSK) 2018-ci il üçün məlumatına əsasən, rəsmi qeydiyyata alınan cinayət əməllərinin sayı 26,381 təşkil edib ki, bu da müstəqillik tarixinin mənfi mənada ən yüksək 3-cü göstəricisidir. İllər üzrə cinayətkarlıq səviyyəsinin artmasının müxtəlif səbəbləri mövcuddur: əhalinin sayının artması, iqtisadi inkişaf və durğunluq dövrləri, cinayət törətmək üçün yeni imkanların meydana çıxması, əhalinin məruz qaldığı cinayət əməli barədə aidiyyətı qurumlara müraciət tendensiyaları və hüquq-mühafizə orqanlarının cinayət əməlini qeydə almaq praktikası.

Azərbaycanda viktimizasiya haqqında məlumat üçün DSK tərəfindən təqdim edilən "2018-ci ildə qeydə alınmış cinayətlər nəticəsində zərərçəkmiş şəxslər" adlı bülletenə nəzər yetirə bilərik. Həmin il ölkə üzrə 21,382 zərərçəkmiş şəxs müəyyən edilib. Hər 10,000 nəfərə düşən zərərçəkən şəxs sayına görə Abşeron rayonu (63 nəfər), Bakı şəhəri (48 nəfər) və Sumqayıt şəhəri (25 nəfər) ilk üç mövqedə qərarlaşıb. Əksər şəhər və rayonlar üçün isə bu rəqəm 10-20 arası dəyişir.

Azərbaycanda viktimizasiya sorğusu müstəqillik dövründə keçirilməyib. Tədqiqat işi məhz bu boşluğu doldurmağı hədəfləyir.

DSK-nın cinayətkarlıq səviyyəsinə dair hər il açıqladığı hesabatların bir sıra çatışmazlıqları mövcuddur. Əvvəla, müxtəlif hüquq-mühafizə orqanlarının DSK-ya təqdim etdiyi hesabatlarda bir sıra qanunsuz əməllər ya əksini tapmayıb, ya da rəqəmlər müəyyən qədər reallığı əks etdirmir. Bununla yanaşı, digər ölkələrdə olduğu kimi, böyük ehtimalla Azərbaycanda da latent cinayətkarlıq səviyyəsi rəsmi rəqəmlərdə göstərildiyindən daha yüksəkdir. Qeyd edək ki, hüquq-mühafizə orqanlarının diqqətindən yayınma ehtimalı yüksək olan və ədəbiyyatda "görünməz cinayətlər" kimi qəbul edilən bir sıra əməllər təsadüfi qaydada seçilən vətəndaşlarla aparılan xüsusi sorğu ("victimisation survey") vasitəsilə daha dəqiq öyrənilə bilər. Bu qəbildən olan cinayət əməllərinə maliyyə dələduzluğu, rüşvət tələb etmə və s. daxildir.




*Cinayət barədə aidiyyəti orqanlara müraciət edilmə ehtimalına müsbət təsir edən bəzi amillər*

## Layihənin məqsədi

Bu viktimoloji sorğunun əsas məqsədi əhali üzrə viktimizasiya (zərərçəkmə) proseslərini təhlil etməklə, cəmiyyətdə cinayətkarlığın tendensiyaları, dinamikası, zərərçəkənlərin sosial portreti və s. tədbirləri təqdim/təklif etməkdir. Sorğunun əsas məqsədi aşağıdakılardır:

- *Latent cinayətkarlıq səviyyəsinin öyrənilməsi;*
- *Vətəndaşların hüquq-mühafizə orqanlarına münasibətinin öyrənilməsi;*
- *Vətəndaşların şəxsi fiziki təhlükəsizliklərinə dair fikirlərin müəyyənləşdirilməsi;*
- *Vətəndaşların yaşadıqları ərazidəki nizam-intizama dair münasibətinin öyrənilməsi;*
- *Cinayət barədə hüquq-mühafizə orqanlarına müraciət edən və etməyən vətəndaşların fərqlərinin müəyyənləşdirilməsi.*

[5]*Kaukinen, C. (2002), "The help-seeking of women violent crime victims: findings from the Canadian violence against women survey", International Journal of Sociology and Social Policy, 22(7/8), pp. 5-44.*

[6]*Boateng, F. D. (2015). Victims of sexual assaults: The experiences of Ghanaian women. International Review of Victimology, 23, 343-360.*

# Tədqiqatın metodoloji prinsipləri

## Metodoloji yanaşma

Sorğunun keçirilməsində kəmiyyət metodundan istifadə edilib. Sorğu Bakı-Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran, Qarabağ, Mərkəzi Aran və Dağlıq Şirvan iqtisadi rayonlarını əhatə edib. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə olunmayıb.

### Demoqrafik göstəricilər




## Respondentlərin seçimi

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilib ki, bu da hər bir vətəndaşa bərabər səviyyədə iştirak imkanı verib. İlk mərhələdə sorğuda əhatə ediləcək yaşayış məntəqələri müəyyənləşdirilib. Növbəti mərhələdə isə respondentlərin stasionar telefon nömrələri baş məcmu əsasında təsadüfi qaydada seçilib. Seçilmiş klasterlər üzrə telefon nömrələrinin olduğu baş məcmuda hər üçüncü nömrəyə zəng edilib. İmtina hallarında növbəti üçüncü nömrə ilə əlaqə saxlanılmağa çalışılıb.

Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilib. Belə ki, sorğuda hər bir sosial-demoqrafik qrupun (gender və yaş) çəkisi onların ölkə üzrə sayına mütənasib qaydada müəyyənləşdirilib. Sorğuda 1214 respondent təsadüfi qaydada seçilib. Seçmənin tərkibi barədə məlumatlar cədvəldə əks etdirilib.

Genişmiqyaslı tədqiqatdan öncə 10 respondentlə sınaq tədqiqatı keçirilib. Sınaq nəticəsində anketdə lazımi düzəlişlər edilib.

Burada xüsusi olaraq vurğulamaq istərdik ki, sosial elmlərdə təsdiqini tapmış və bir çox hallarda həssas mövzular üzrə sorğularda özünü büruzə verən "sosial xoşagəlimlilik" problemi mövcuddur. Belə ki, respondent müsahibin nəzərində özü barədə xoş təəssürat yaratmaq, eləcə də hər hansı xoşagəlməz hal ilə üzləşməmək üçün bəzi hallarda sualları fərqli, bir o qədər də reallığı əks etdirməyən formada cavablandıra bilər. Bu sorğuda bəzi sualların həssaslığını nəzərə alaraq, "sosial xoşagəlimlilik" probleminin nəticələrin dəqiqliyinə müəyyən qədər təsir göstərmiş olma ehtimalını qəbul edirik.

## Sorğu anketi

Sorğu anketi 27 (19 spesifik və 8 sosial-demoqrafik) sual və 4 blokdan ibarətdir. Birinci blokda respondentin son 3 il ərzində hər hansı cinayət əməlindən zərər çəkib-çəkməməsinə, zərər çəkdiyi təqdirdə aidiyyəti qurumlara müraciət edib-etməməsinə və hüquq-mühafizə orqanlarına inamına dair suallar yerləşdirilib. Son 3 il ərzində heç bir cinayət əməlindən zərər çəkməyənlər də sorğuda iştirak edib, ancaq onlara bəzi suallar verilməyib. Beləliklə, cinayət əməlindən zərərçəkən və zərərçəkməyənlər arasında potensial sosial-demoqrafik fərqlərin müəyyənləşdirilməsi mümkün olub. İkinci blokda vətəndaşın yaşayış şəraiti və evinin infrastrukturuna dair suallar verilib. Növbəti blokda isə cinayətkarlığa məruzqalma ehtimalının dəyərləndirilməsi tələb edilib. Son blokda sosial-demoqrafik suallar təqdim edilib.

## Təlimat

İntervüyerlər üçün təlimat qaydaları hazırlanıb. İntervüyerlər işə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən müvafiq təlimdən keçirilib. Təlim zamanı intervüyerlər anket və təlimatlarla tanış olublar. Sorğu anketindəki hər bir sual üzrə geniş izahatlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

## Sorğunun aparılması üsulu

Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibə üsulundan istifadə olunub. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, sorğular planşetlər vasitəsilə həyata keçirilib. Son illər ABŞ-da və Böyük Britaniyada daha geniş tətbiq olunan və müasir sorğu proqramı kimi qəbul edilən SurveyToGo proqramından istifadə edilib. Bu proqram sorğu heyətinin işinə nəzarət etmək, sorğu prosesinə onlayn müşahidəni əldə saxlamaq və etibarlı informasiya almaq baxımından bir sıra üstünlüklərə malikdir.

## Sahə işi

Sorğu 2020-ci ilin 3-18 iyun tarixlərində keçirilib. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

## Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Dəyişənlər arasında əlaqələr Pirson korrelyasiyası texnikası ilə öyrənilib. Oxucular üçün bildirək ki, dəyişənlər arasında əlaqələr aşkarlandıqda, onlar korrelyasiyanın nə dərəcədə təsadüfi olmasına görə ($p<0.01$ az təsadüfi, $p<0.05$ nisbətən çox təsadüfi) müvafiq formada ifadə edilib.

## Sorğunun nəticələrinin təhlili

**1. Cinayətdən zərərçəkmə**

Sorğu nəticəsində respondentlərin 81.5%-i son 3 il ərzində hər hansı bir cinayət əməlindən zərər çəkmədiyini qeyd edib ki, bu da Azərbaycanda kriminogen vəziyyət baxımından müsbət haldır. Başqa sözlə, son 3 il ərzində əhalinin yalnız 18.5%-i hər hansı bir cinayət əməlindən zərər çəkib.

Analizdə son 3 il ərzində hər hansı bir cinayət əməlindən zərərçəkən və zərərçəkməyənlər arasında fərqlərə də nəzər yetirilib. Zərərçəkmiş 224 nəfərin 57%-i, zərərçəkməyənlərin isə 53%-i kişilərdən ibarət olub. Hazırda işləyənlərin 21%-i cinayətdən zərər çəkib. Sorğuda rəyi öyrənilmiş 136 təqaüdçünün cəmi 14%-i son 3 il ərzində qanun pozuntusu ilə üzləşibsə, bu göstərici 212 işsiz üçün 21%-dir. Evdar qadınların (244 nəfər) 11%-i son 3 il ərzində qanun pozuntusu ilə üzləşib. Şəhər əhalisinin 21%-i, kənd və qəsəbə əhalisinin isə 16%-i son 3 il ərzində qanun pozuntusundan zərər çəkib. Yaş cəhətdən isə 26-35 və 36-45 yaş qruplarına aid şəxslərin cinayətdən zərərçəkmə ehtimalları daha yüksəkdir. Beləliklə, bir sıra demoqrafik amillərin vətəndaşın cinayətə məruzqalma riskini artırdığını, yaxud azaltdığını müəyyən dərəcədə əminliklə demək olar.

Nəticələrə əsasən, son 3 ildə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı zərərçəkən əhali arasında ən geniş yayılan əməldir (7.7%). Demoqrafik cəhətdən tələbələrin ((4) 14,490, $p<0.01$), eləcə də şəhər və qəsəbə əhalisinin ((2) 10.139, $p<0.05$) keyfiyyətsiz qida və ya içki almaqdan zərər çəkmiş olması ehtimalı yüksəkdir.

Bu nəticə diqqət çəkir, çünki DSK tərəfindən cinayətkarlığın səviyyəsinə dair təqdim edilən ən son hesabatda (2018-ci il) bu əməl ən az qeydə alınan hallardan biridir. Bu isə viktimizasiya sorğusunun rəsmi statistikaya nisbətdə üstün cəhətlərindən birini əyani şəkildə sübut edir. Belə bir fərqin yaranmasının müxtəlif səbəbləri ola bilər: bəzi şəxslərin keyfiyyətsiz məhsullarının istehlakından zərərçəkən şəxslərin bu əməli polisə şikayət edəcək qədər ciddi görməməsi, bəzilərinin isə ümumiyyətlə bu əməlin cinayət xarakterli olmadığını güman etməsi. Nəzərə alsaq ki, ölkəmizdə qida təhlükəsizliyinə

**Son 3 il ərzində zərərçəkmiş şəxs qismində aşağıdakı qanun pozuntularının hansı ilə üzləşmisiniz?**







nəzarət xüsusi olaraq yalnız 3 il öncə yaradılmış Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilir, adıçəkilən hal ilə üzləşən bəzi vətəndaşların bu qurumun səlahiyyətləri barədə xəbərsiz olma ehtimalı da mümkündür. Başqa sözlə, məlumatsızlıq zərərçəkən şəxsin müvafiq quruma müraciət etməməsi ilə nəticələnmiş ola bilər.

Maliyyə dələduzluğundan, eləcə də oğurluqdan zərərçəkənlərin göstəriciləri

**Hansı şəxsi əmlakınız oğurlanıb?**




müvafiq olaraq 5% və 4.8% təşkil edib. Bu göstəricilər DSK tərəfindən cinayətkarlığın səviyyəsinə dair təqdim edilən son bir neçə hesabatın göstəricilərini dəstəkləyir. Başqa sözlə, həm bu sorğu, həm də rəsmi göstəricilər maliyyə dələduzluğu və oğurluq hallarının ən geniş yayılan əməllərdən biri olduğunu təsdiq edir. Göstəricilər adıçəkilən cinayət əməllərinin mütləq sayı cəhətdən fərqlənsələr də, tendensiyanın üst-üstə düşməsini bununla əlaqələndirmək olar ki, əmlakını, yaxud maddi vəsaitini itirmiş şəxslər maddi təzminatın təminatı üçün bu barədə hüquq-mühafizə orqanlarına şikayət etməkdə, adətən, maraqlı olurlar. İşləyən insanların maliyyə dələduzluğundan zərərçəkmə ehtimalı daha yüksəkdir ((4) 9,657, $p<0.05$).

Dövlət məmurunun, həkim, polis və ya müəllimin rüşvət tələb etməsi halı ilə 4.5% respondent son 3 il ərzində üzləşib. Son olaraq isə sağlamlığa fiziki zərər yetirən əmələ məruz qalanlar isə seçmənin 1%-ni təşkil edib.

Ondan rüşvət tələb edildiyini deyən 54 respondentin cavabına əsasən bu hala ən çox səhiyyə (37%), polis (20.4%) və təhsil (18.5%) sahələrində rast gəlinib. Məşğuliyyət amili ilə rüşvətxorluqdan zərərçəkmə ehtimalı arasında korrelyasiya var - işsiz və işləyənlərin hər üçdən biri bu halla üzləşib ((4), 12.528, $p<0.05$). Bu nəticəni bir neçə amillə əlaqələndirə bilərik. İşsiz şəxslərin müəyyən hissəsi iş axtarışı və işəqəbul prosesində rüşvət tələbi ilə rastlaşmış ola bilər. İşləyən şəxslərin bir qismi isə iş prosesinin özündə dövlət qurumlarından rüşvət tələbi ilə üzləşmiş ola bilər.

Son 3 il ərzində 4.8% respondentin əmlakı oğurlanıb ki, burada pul ən çox oğurlanan əmlak kimi qarşıya çıxır (29%). Telefonunun və məişət avadanlığının oğurlandığını deyənlərin çəkiləri isə müvafiq olaraq 26% və 21% təşkil edib. Digər növ əşyalarının oğurlandığını bildirənlərin çəkisi isə 26%-ə bərabər olub.

Cəmi 1% respondent son 3 il ərzində fiziki güc tətbiqinə məruz qalıb. Bu əməl əsasən silahsız hücum (məsələn, döyülmək) formasında törədilib. Lakin fiziki güc tətbiqindən zərərçəkənlərin sayının bu qədər az olması sosial “xoşa gəlimlilik” problemi ucbatından da ola bilər. Başqa sözlə, bəzi respondentlər bu sualı gerçək olmayan formada cavablandırmış ola bilər. Diqqət çəkən məqam odur ki, heç bir respondent odlu silahla təşkil edilən hücuma məruz qalmayıb. Bu fakt bir daha

Azərbaycanda “odlu silah” probleminin olmadığını təsdiq edir.

### 1.1. Cinayətin təsirləri

Cinayət hadisəsinin şəxs üzərindəki təsirlərinin kəmiyyət və keyfiyyət cəhətlərini viktimoloji tədqiqatlar anket sorğusu və dərinləşdirilmiş müsahibə ilə öyrənir. Məhz buna görə də, bu sorğuda da cinayət hadisəsinin şəxs üzərindəki təsirləri öyrənilib. Cinayətdən zərər çəkənlərin müvafiq olaraq 42.4%-i və 48.7%-i çox və ya müəyyən dərəcədə maddi itkiyə məruz qaldığını və psixoloji travma yaşadığını qeyd edib. Zərəçəkənlərin 90%-nin fiziki ziyanla üzləşməməsi sağlamlıq əleyhinə cinayətlərin mülkiyyət əleyhinə olan cinayətlərə nisbətdə dəfələrlə az yayıldığını bir daha təsdiqləyir. Gender cəhətdən daha çox qadın kişilərə nisbətdə çox və ya müəy yən dərəcədə psixoloji travma keçirib ((4)=15.456, p<0.01).

Maliyyə dələduzluğundan zərər çəkənlərin daha çox hissəsi hər hansı travma, fiziki ziyan və ciddi maddi itki almadığını deyib. Lakin maddi itki ilə üzləşənlərin demək olar ki, hər biri psixoloji travma keçirdiyini də bildirib. Oxşar mənzərə keyfiyyətsiz qida və ya içki almaqdan və oğurluqdan zərərçəkənlər üçün də müşahidə edilib.

### 1.2. Cinayəti kim törədib?




Bəs, cinayəti törədən şəxs kim olub? Cinayət hallarının 62.5%-də cinayətkar şəxs yad adam olduğu halda, 12.5% göstərici üzrə əməli törədənin tanış adam olduğu müəyyən edilib. Təxminən hər beş cinayətdən birini törədənin şəxsiyyəti hələ müəyyən edilməyib. Yaşayış yerinin tipindən - şəhər, qəsəbə və kənddən asılı olmayaraq, bütün hallarda cinayətlərin ən azı yarısı yad adam tərəfindən törədilib. Cinayət növləri üzrə də cinayəti törədən şəxsin kimliyi hər hansı statistik əhəmiyyətli əlaqəyə malik deyil. Lakin diqqət çəkən məqam odur ki, oğurluğa məruz qalmış 58 nəfərdən 34-ü cinayətkarın hələ müəyyən edilmədiyini bildirib. Bu, digər cinayətlərə nisbətdə daha yüksəkdir.









## 2. Hüquq-mühafizə orqanlarına və məhkəməyə etibar

Hüquq-mühafizə orqanları və məhkəmə sahəsində əhali arasında ən yüksək inam polisədir - 45.1%. İşləyən və təqaüdçülərin polisə etibarı daha çoxdur ((16) 46.268, p<0.01). Bu qurumlara etibar etməyənlərə gəlincə isə məhkəmələr mənfi mənada irəlidədir - 46%. Azərbaycanda son illər nəzarətedici funksiyanı yerinə yetirən yeni agentliklərin yaradıldığını nəzərə alaraq, respondentlərin həmin agentliklərə etibarı da ölçülüb. 36.8% həmin agentliklərə etibar etsə də, 56% etibar etmir. Prokurorluq orqanlarında da oxşar mənzərə mövcuddur - 36.8% etibar etsə də, 40% etibar etmir. Beləliklə, əhali hüquq-mühafizə orqanlarına və məhkəməyə etibar cəhətdən iki fərqli mövqedə dayanır. Maraqlıdır ki, hüquq-mühafizə orqanlarına və məhkəməyə etibar ilə onlara müraciət edib-etməmək arasında korrelyasiya müəyyən edilməyib.




## 3. Cinayət barədə hüquq-mühafizə orqanlarına və məhkəməyə müraciət

Hüquq-mühafizə orqanlarının baş verən bütün cinayətləri aşkar etmək imkanı yoxdur. Məhz buna görə də cinayətdən zərərçəkənlərin bu barədə aidiyyəti quruma, yaxud məhkəməyə şikayət etməsi cinayətkarlığın səviyyəsinin daha dəqiq ölçülməsi və qanunsuz əməlin aşkarlanması, eləcə də onu törədənin tapılması nöqteyi-nəzərindən önəmlidir. Cinayətdən zərər çəkdikdən sonra yalnız 38% respondent bu barədə dövlət qurumuna, yaxud məhkəməyə şikayət edib ki, bu da narahatedici məqamdır. Başqa sözlə, zərərçəkənlərin hər üçündən biri bu barədə heç bir quruma müraciət etməyib. Diqqətə çatdıraq ki, belə göstəricilər bir sıra xarici ölkələrdə də müşahidə edilir. Məsələn, ABŞ-da 1994-2010-cu illər arasında viktimizasiya statistikasına görə, təcavüzkarlıq hallarının 42-50%-ə qədəri, evə basqınların isə 67%-i zərərçəkənlər tərəfindən hüquq-mühafizə orqanlarına bildirilməyib.[7] Afrika dövləti Qanada təcavüzkarlıq hallarının 33%-i, oğurluqların isə 26.7%-i haqqında polisə müraciət edilməyib.[8] 2017-ci ildə Rusiyada 1600 nəfərlə aparılmış analoji sorğu müəyyən edib ki, son 5 il ərzində cinayətdən zərər çəkənlərin yalnız 17%-i bu barədə müvafiq orqanlara müraciət ünvanlayıb.[9]

Maraqlıdır ki, zərərçəkənin müraciət edib-etməməsinə hər hansı sosial-demoqrafik amil statistik əhəmiyyətli dərəcədə təsir etməyib.

Bəzi kriminoloqlar diqqətə çatdırırlar ki, cinayət barədə şikayət etməmək hüquq-mühafizə orqanlarının işinin daha da effektiv təşkilinə maneə olmaqla yanaşı, zərərçəkənlərin özləri üçün də bir çox hallarda mənfidir. Belə ki, kriminologiya ədəbiyyatında da göstərildiyi kimi, polis qüvvələri ölkədəki kriminogen vəziyyətə nəzarətdə vətəndaşların dəstəyinə (ing. *informal, social control*) ehtiyac duyurlar. Bununla yanaşı, cinayətdən zərərçəkənlər bu barədə dövlət qurumuna, yaxud məhkəməyə şikayət etmədikdə bir sıra faydalardan da məhrum olurlar. Belə ki, dəymiş zərərə görə kompensasiyanın ödənilməsi, cinayətkarın yaxalanması və s. kimi məsələlərin şikayət olmadığı halda təmin edilməsi qəlizdir.

Şikayət edilən qurumlar arasında polis ilk mövqedə dayanır ki, bu da təbiidir. Xarici ölkələrdə aparılmış kriminoloji tədqiqatlar-

*[7]Langton, L., Berzofsky, M., Krebs, C, Hope Smiley, M. (2012) Victimizations Not Reported to the Police, 2006-2010. bjs.gov/index.cfm?ty=pbdetail&iid=4393*

*[8]Boateng, F. D. (2015). Victims of sexual assaults: The experiences of Ghanaian women. International Review of Victimology, 23, 343-360.*

*[9]Victim Support Foundation and Russian Public Opinion Research Center (2017). First national victimization survey in Russia. https://victimsupport.eu/news/first-national-victimization-survey-in-russia/*

da da məhz polis cinayət barədə şikayətin ünvanlandığı qurum kimi ilk yerdə dayanır. Bunun başlıca səbəbi isə polisin hüquq-mühafizə sisteminin ən çox göz önündə olan təmsilçi rolunda çıxış etməsidir. Başqa sözlə, vətəndaşlar üçün polis ədliyyə sisteminin vətəndaşlara ən yaxın komponentidir.

### 3.1. Şikayət və nəticədən razılıq dərəcəsi

Xüsusi olaraq zərərçəkənlərə ünvanlanmış digər sualların nəticələrinə nəzər yetirdikdə məlum olur ki, onların əsas hissəsi müraciətlərinin nəticələrindən əsasən, yaxud heç qane olmayıblar (65.9%). Belə narazılıq dərəcəsi hüquq-mühafizə orqanlarında şikayətlərin idarə edilməsində müəyyən problemlərin olduğundan xəbər verir. İstintaqdakı bürokratik əngəllər, cinayətkarın operativ şəkildə tapılmaması və s. kimi amillərin vətəndaşlarda narazılıq yaratdığını deyə bilərik.

Müraciət edənlərə nəzər yetirdikdə müəyyən etmək olur ki, müraciət etməyə qərar verənlərin gender üzrə bölgüsü demək olar ki eynidir. Ümumiyyətlə, heç bir sosial-demoqrafik amilin müraciət qərarına statistik əhəmiyyətli təsir etmədiyi müəyyən edilib.

### 3.2. Şikayət etməməyin səbəbləri

Bəs, Azərbaycanda cinayətdən zərərçəkənlər niyə bu barədə şikayət etmirlər? Burada başlıca səbəb kimi məsələnin tərəflər arasında həll edilməsi qarşıya çıxıb (40%). Bu nəticəyə əsasən deyə bilərik ki, bir çox hallarda vətəndaşların hüquq-mühafizə orqanına müraciətinə ehtiyac qalmır. Bəzi ölkələrdə (məsələn, Qana və Malavi)[10] [11] aparılmış analoji sorğular müəyyən edib ki, bir çox hallarda cinayət barədə polisə şikayət etməməyin səbəbi "qeyri-rəsmi dəstək qruplarına" müraciət olub. Sosioloji ədəbiyyatda "qeyri-rəsmi dəstək qruplarına" ailə üzvləri, qohumlar, ağsaqqallar və din xadimləri daxildir. Beləliklə, mümkündür ki, bu sorğuda əhatə edilmiş bir çox respondent məsələni lokal çərçivədə, dəstək qruplarının vasitəsilə həll edib. Bununla yanaşı, müəyyən şəxslərin özü cinayəti törədənlə təmas quraraq məsələni (məsələn, kompensasiya almaq) həll etmiş ola bilər.

Hər dörd cinayət halından biri barədə ona görə şikayət edilməyib ki, zərərçəkən şikayətinin istədiyi nəticəni verməyəcəyini düşünüb, eləcə də cinayəti müraciət




edəcək qədər ciddi hesab etməyib. Zərərçəkən 224 nəfərin 12.2%-i isə məhkəmə və digər qurumlara inamsızlıq ucbatından heç bir müraciət etməyib.

Cinayət növləri ilə müraciət etməyənlərin arasındakı krostab analiz göstərir ki, keyfiyyətsiz qida və ya içki almaqdan zərər çəkənlərin nisbətən daha çox hissəsi bu barədə aidiyyəti qurumlara şikayət etməyiblər.

Cinayət növləri ilə müraciət etməməyin səbəbləri arasında əlaqəyə gəlincə, dövlət məmurunun, həkim, polis və ya müəllimin rüşvət tələb etməsi ilə üzləşənlər arasında "düşündüm ki, şikayətim istədiyim nəticəni verməyəcək" və "məsələni özüm həll elədim" cavabları önə çıxıb. Kimə və necə müraciət edilməsi barədə məlumatsızlıq ucbatından cinayət barədə şikayət etməmək halları yalnız maliyyə dələduzluğu, yararsız məhsul, keyfiyyətsiz qida və ya içki almaq üzrə müşahidə edilib. Bu isə müəyyən qədər başadüşüləndir, çünki bu qanun pozuntularının təsiri bir çox hallarda dərhal hiss edilməməklə yanaşı, belə hallar barədə hansı müvafiq nəzarətedici agentliklərə müraciət edilib-edilməməsi hər kəs üçün bəlli deyil. Bu hal yalnız Azərbaycan üçün xarakterik deyil.

### 4. Şəxsi təhlükəsizlik (mənzilin infrastrukturu)

Kriminologiyada təsdiqini tapmış nəzəriyyəyə əsasən, mənzilin infrastrukturu ilə cinayətdən zərər çəkmək riskləri arasında əlaqələr mövcuddur.[12] Bu, xüsusilə də mülkiyyət əleyhinə olan cinayətlər üçün xarakterikdir. Məsələn, kriminoloji tədqiqatlar sübut edib ki, binaların hündür mərtəbəsində yaşayanların mülkiyyət əleyhinə olan cinayətlərə məruz qalmaq qorxusu, adətən, daha azdır, çünki yerdən yüksəklikdə olmaq onlarda "qala effekti"[13] yaradır. Qərb cəmiyyətlərində isə müəyyən edilib ki, sosial evlərdə yaşayanların qanun pozuntuları ilə rastlaşmaq ehtimalı şəxsi evdə yaşayanlara nisbətdə daha yüksəkdir ki, bunun da əsas səbəbi

[10]Boateng, F. D. (2015). Victims of sexual assaults: The experiences of Ghanaian women. International Review of Victimology, 23, 343-360.

[11]Sidebottom, A. (2015) On the Correlates of Reporting Assault to the Police in Malawi, The British Journal of Criminology, 55(2), 381- 398.

[12]Holzman, H. R. (1996). Criminological Research on Public Housing: Toward a Better Understanding of People, Places, and Spaces. Crime & Delinquency, 42(3), 361–378. https://doi.org/10.1177/0011128796042003002

[13]Blakely, E. (1995). Fortress communities: The walling and gating of American suburbs. Land Lines, 7, 1-3.




kimi sosial evlərin olduğu ərazilərdə bir çox hallarda maddi yoxsulluğun da mövcud olmasıdır. Məhz buna görə sorğuda respondentlərə yaşadığı mənzil ilə bağlı bir neçə sual verilib.

Sorğuda iştirak edənlərin böyük hissəsi (74.8%) həyət evində yaşayır. Mütləq əksəriyyət (96.4%) evdə kiminləsə yaşayır. Yaşayış məntəqələrinin tipləri üzrə bölgüyə gəlincə isə şəhərlərdə məskunlaşmış respondentlər rayon və kəndlərə nisbətdə müəyyən qədər çoxdur - 46% və 39%. Mənzil tipinə gəlincə, həyət evində yaşayanlar kənd və qəsəbələrdə daha çoxdursa, bina evinin sakinləri şəhərlərdə daha geniş yayılıb.

Diqqət çəkən məqam odur ki, əhalinin daha çox hissəsinin (70.6%) mənzilində heç bir təhlükəsizlik mexanizmi mövcud deyil. Bunu müxtəlif amillərlə əlaqələndirmək olar - mövcud gəlir səviyyəsi mənzildə hər hansı təhlükəsizlik mexanizmi qurmağa imkan vermir, yaxud həmin vətəndaşlar hər hansı təhlükəsizlik mexanizminə ehtiyac duymur.

Seyf qapı və dəmir barmaqlıq (pəncərə üçün) ən geniş yayılan təhlükəsizlik mexanizmləri kimi qarşıya çıxır (müvafiq olaraq, 16.7% və 13.8%). İşləyən əhalinin evində işləməyən və digərlərinə nisbətdə ən azı bir təhlükəsizlik mexanizminin mövcud olma ehtimalı yüksəkdir ((24) 99.824,




p<0.01). Eynilə aylıq gəlir artdıqca mənzildə ən azı bir təhlükəsizlik mexanizminin mövcud olma ehtimalı da artır ((18) 109.456 p<0.01). Kənd əhalisinin daha çox hissəsinin evində heç bir təhlükəsizlik mexanizmi olmadığı müəyyənləşib ((12) 146.435, p<0.01). Gözlənildiyi kimi, evində ən azı bir təhlükəsizlik mexanizmi mövcud olanlar oğurluqla üzləşmə ehtimalını az dəyərləndiriblər ((18) 107.999, p<0.01). Bildirək ki, yaşadığı evin tipi respondentin hər hansı cinayət halından zərər çəkmək ehtimalı barədə fikrinə statistik əhəmiyyətli dərəcədə təsir etməyib.

Kriminologiyada vətəndaşın evdə tək və ya kiminlə yaşaması məsələsi bir çox araşdırmalarda nəzərə alınıb. Belə ki, tək yaşayan respondentlər başqa biri ilə yaşayanlara nisbətdə, adətən, özünü daha çox təhlükədə hiss edir. Bununla yanaşı, həmin insanların cinayətə məruz qaldıqda bu barədə hüquq-mühafizə orqanlarına müraciət etməmək ehtimalı daha yüksəkdir. Sorğuda əhatə edilənlərin mütləq əksəriyyəti (96%) evdə başqa bir şəxslə yaşayır. Bu, respondentlər arasında ailəsi ilə yaşayanların çoxluq təşkil etməsindən xəbər verir. Nəticə əsasında təhlükəsizlik baxımından ən azı iki fikir deyə bilərik: 1) Əhalinin əksər hissəsinin evdə ən azı başqa bir nəfərlə yaşaması onun cinayətkarlığa məruz qalması qorxusunu azaldır. 2) Evdə tək olmadığından bir çox insan təhlükəsizlik mexanizmlərinə ehtiyac duymur. Lakin bu fikirlərin ölkəmiz üzrə təsdiqi üçün əlavə tədqiqatların aparılması zəruridir.

### 5. Şəxsi təhlükəsizlik (mənzildən kənarda)

Sosial elmlərdə müntəzəm qaydada ölçülən parametrlərdən biri vətəndaşların cinayətdən zərər çəkmək qorxusudur. Apardığımız sorğu nəticəsində müəyyən edildi ki, əhalinin nəzərəçarpacaq hissəsi (69.6%) oğurluqla, 85.6%-i isə küçədə gəzərkən sağlamlığa fiziki zərər yetirilmə ilə üzləşmə ehtimalının olmadığını ifadə edib ki, bu da kriminogen vəziyyət nöqteyi-nəzərindən sevindirici haldır. Buna baxmayaraq, diqqət edilməlidir ki, oğurluğa məruzqalma ehtimalını çox dəyərləndirənlərin göstəricisi küçədə gəzərkən fiziki güc tətbiqi ilə üzləşməyə nisbətdə daha yüksəkdir (6.3% və 1.4%). Narahatlıq dərəcələri arasındakı fərqi həm rəsmi statistika, həm də bu viktimizasiya sorğusunun nəticələri ilə izah edə bilərik. Reallıq bun-

dan ibarətdir ki, oğurluq halları sağlamlıq əleyhinə olan cinayətlərdən dəfələrlə daha geniş yayılıb.

Orta yaş qrupunun qorxusu digərlərinə nisbətdə daha azdır ((15) 89.960, p<0.01). Şəhər və qəsəbələrdə yaşayanlar oğurluqla üzləşmə ehtimalını kənd əhalisinə nisbətdə daha yüksək dəyərləndirib ((6) 34.410, p<0.01). Məşğuliyyət cəhətdən isə işləyənlər və evdar qadınlar küçədə gəzərkən sağlamlığa fiziki zərər yetirən əməl ilə üzləşmə ehtimalını daha aşağı dəyərləndiriblər ((12) 62.216, p<0.01). Aylıq gəliri 501 manatdan artıq olanların daha çox hissəsi oğurluqla üzləşmə ehtimalının az olduğunu bildirsə də, aylıq gəliri 501 manatdan aşağı olanların daha çox hissəsi ümumiyyətlə belə bir ehtimalın olmadığı qənaətindədir ((9) 18.031, p<0.05). Mümkündür ki, nisbətən daha yuxarı gəliri olanların "hədəf" seçilə biləcəyi oğurlanacaq əşyaları daha çox ola bilər ki, bu da həmin vətəndaşların müəyyən hissəsində qorxu yaradır.

Eyni vəziyyət "Küçədə gəzərkən fiziki güc tətbiqi ilə üzləşmə ehtimalınız nə qədərdir?" sualı üzrə də müşahidə edilib ((9) 20.765, p<0.05). Diqqət çəkən məqam odur ki, bir çox tədqiqatlardan fərqli olaraq, bu sorğuda respondentlərin cinsi ilə cinayətə məruzqalma qorxusu arasında statistik əhəmiyyətli əlaqə aşkarlanmayıb.

Maliyyə dələduzluğundan zərərçəkənlər oğurluqla üzləşmə ehtimalını yüksək dəyərləndiriblər ((64) 34.780, p<0.01). Eyni mənzərə keyfiyyətsiz qida və ya içki almaqdan zərərçəkmişlər üçün də müşahidə edilib ((98.103) 24.410, p<0.01). Dövlət məmurunun, həkim, polis və ya müəllimin rüşvət tələb etməsindən ((53) F=15.461 p<0.01), eləcə də oğurluqdan zərərçəkənlər oğurlaqla üzləşmə ehtimalını daha yüksək dəyərləndirirlər ((58) F=7.825 p<0.01). Ümumiyyətlə, demək olar ki, zərər çəkdiyi cinayət növündən asılı olmayaraq, vətəndaşlar bu və ya digər dərəcədə oğurluqla üzləşmə ehtimalının olduğunu bildirib ki, bu da müəyyən dərəcədə gözlənilən idi. Belə ki, daha öncə aparılmış viktimizasiya sorğularının bir çoxunda müəyyən edilib ki, öncədən zərər çəkmək gələcəkdə zərər çəkmək qorxusunu yüksəldir.[14] Maraqlıdır ki, küçədə gəzərkən sağlamlığa fiziki zərər yetirən əməl ilə üzləşmə ehtimalına respondentin oğurluqdan zərər çəkib-çəkməməsi statistik əhəmiyyətli dərəcədə tə-







sir etmir.

Bununla yanaşı, sevindirici haldır ki, əhalinin əsas hissəsi (87.9%) küçədə gəzərkən özünü qorumaq üçün xüsusi olaraq hər hansı tədbir görmür. Bunu onunla əlaqələndirə bilərik ki, vətəndaşların çox hissəsi hər hansı təzyiqə və ya hücuma məruz qalmayacağını və ictimai təhlükəsizliyin yüksək səviyyədə olduğunu düşünür. Lakin hər on nəfərdən biri özünümüdafiə məqsədilə üzərində çox nağd pul daşımır. Gözlənildiyi kimi, bu məsələdə gender amili öz təsirini göstərir - qadınların hər hansı özünümüdafiə tədbirinə əl atma ehtimalı daha yüksəkdir (5) 66,039, p<0.01). Kənd əhalisinin şəhər və qəsəbə əhalisinə nisbətdə heç bir özünümüdafiə tədbiri görməmə ehtimalı daha yüksəkdir (10) 45.236, p<0.01). Təqaüdçü, tələbə və işsiz olanların digər məşğuliyyət qruplarına nisbətdə heç bir özünümüdafiə tədbiri görməmə ehtimalı daha yüksəkdir ((20) 54.731, p<0.01). Aylıq gəlir artdıqca heç bir özünümüdafiə tədbiri görməyənlərin sayı artır, hərçənd




[14] *Ferguson, K. M., & Mindel, C. H. (2007). Modeling fear of crime in Dallas neighborhoods: A test of social capital theory. Crime and Delinquency, 53(2), 322–349. Katz, C. M., Webb, V. J., & Armstrong, T. A. (2003). Fear of gangs: A test of alternative theoretical models. Justice Quarterly, 20(1), 95–130.*

**Cədvəl 1.**

*Demoqrafik dəyişənlər və şəxsi təhlükəsizliklə bağlı sualların əlaqəsini göstərən korrelyasiya matrisi. Bir ulduz əlaqənin gücünün 0.05, iki ulduz 0.01 səviyyəsində olduğunu göstərir.*

| | Gender | Yaş | Aylıq gəlir | Məşğuliyyət | Yaşayış məntəqəsinin tipi |
|---|---|---|---|---|---|
| Küçədə gəzərkən özünü qorumaq üçün hər hansı tədbir | ** | | * | ** | ** |
| Oğurluqla üzləşmək ehtimalı | | | * | | ** |
| Küçədə gəzərkən sağlamlığa fiziki zərər yetirən əməl ilə üzləşmək ehtimalı | | ** | * | ** | |
| Təhlükəsizlik mexanizminin mövcud olması | ** | | ** | | ** |

bu hal aylıq gəliri 1001 manatdan yüksək olanlar arasında müşahidə edilməyib ((15) 33.093, p<0.05).

Sorğuda iştirak edənlər arasında gündəlik nəqliyyat vasitəsi kimi ictimai nəqliyyat (avtobus və metro) ilk yerdə dayanır (48.6%). Təxminən bir o qədər insan gündəlik hər hansı nəqliyyat vasitəsindən istifadə etmədən piyada gəzir. Nisbətən daha az respondent minik avtomobilindən gündəlik olaraq istifadə edir. Gündəlik nəqliyyat vasitəsinin soruşulmasının motivi bundan ibarətdir ki, piyada və ictimai nəqliyyatdan müntəzəm istifadə edən şəxsin hər hansı fiziki təzyiqə, yaxud oğurluğa məruzqalma ehtimalı minik avtomobili istifadəçilərinə nisbətdə daha yüksəkdir.

Gündəlik nəqliyyat vasitəsi ilə özünümüdafiə tədbirləri arasında korrelyasiya müəyyən edilib ((20), 66.661, p<0.01). Gözlənildiyi kimi, bahalı əşya taxmayanların və üstündə böyük məbləğdə nağd pul daşımayanların təxminən 64%-i ictimai nəqliyyata minir. Heç bir özünümüdafiə tədbiri görməyənlərin 38.3%-i adıçəkilən nəqliyyat vasitəsinə gündəlik olaraq müraciət edir. Özünümüdafiə üçün alət gəzdirənlərin 37%-i əsasən piyada olaraq hərəkət edir.

Əgər minik avtomobili kişilər arasında daha çox yayılıbsa, qadınlar üçün ictimai nəqliyyat daha çox istifadə edilən nəqliyyat vasitəsi kimi qarşıya çıxır. Beləliklə, bu rəqəm də qadınların cinayət əməlinə məruzqalma qorxularını müəyyən qədər yüksəldir. Aylıq gəliri 501 manatdan yüksək olan respondentlər arasında şəxsi avtomobildən istifadə daha geniş yayıldığı halda, piyada gəzənlərin sayı daha aşağıdır ((12) 64.089, p<0.01).



## NƏTİCƏ və TƏKLİFLƏR

Ölkəmizdə ictimai təhlükəsizliyin təminatı əsasən arzuedilən səviyyədə olsa da, müstəqillik tarixi ərzində heç bir viktimoloji sorğu aparılmayıb. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılmış bu sorğu cinayətkarlığın ölçülməsində dünyada qabaqcıl ölkələrin təcrübəsi əsasında hazırlanıb və yerli mühitə (eləcə də, metodoloji imkanlara) uyğunlaşdırılan anket əsasında həyata keçirilib. Beləliklə, sorğu vasitəsilə zərərçəkənlərin hüquq-mühafizə orqanlarına müraciət etməməsinin səbəbləri, cinayətin vətəndaşa psixoloji, maddi və digər mənfi təsirləri, vətəndaşların hüquq-mühafizə orqanlarına və məhkəməyə etibarı müfəssəl şəkildə öyrənilib.

**Nəticələr əsasında aşağıdakı təklifləri təqdim edirik:**

### 1. İnstitusional inamın artırılmasının əhəmiyyəti

Cinayətdən zərər çəkdikdən sonra 224 nəfərin 38%-i bu barədə dövlət qurumu, yaxud məhkəməyə şikayət edib. Edilmiş müraciətlərin əsas hissəsinin (65.9%) nəticəsi vətəndaşları qane etməyib. Buna əsasən təklif edirik ki, istintaq prosesinin təkmilləşdirilməsinə, həmin qurumlara ictimai inamın artırılmasına ehtiyac var. Məlumat üçün bildirək ki, məhkəmələrə inam Sosial Tədqiqatlar Mərkəzinin bundan əvvəl keçirdiyi sorğulardan da müəyyənləşdiyi kimi aşağıdır. Həm istintaq, həm də vətəndaş müraciətindən irəli gələn digər məsələlərdəki bürokratik əngəlləri ortadan qaldırmaq lazımdır. Cinayətdən zərər çəkən vətəndaşların bu barədə müvafiq instansiyalara müraciət etməsinin təşviqi üçün hüquqi yardım təminatının əhatəsi genişləndirilməli, keyfiyyəti artırılmalıdır. Ölkəmizdə daha öncə aparılmış tədqiqatlar göstərir ki, ciddi vəkil çatışmazlığı (xüsusilə şəhər statusuna malik olmayan yaşayış məntəqələrində) mövcuddur ki, bu da bir sıra zərərçəkənlərin cinayət barədə şikayət etməməsinə səbəb olur.

### 2. Mətbuat vasitəsilə maarifləndirmə

Mətbuat qurumları cinayətdən zərərçəkən vətəndaşların aidiyyəti qurumlara müraciət etmə faizinin artırılmasında maarifləndirmə vasitəsilə mühüm rol oynaya bilər. İlk növbədə, mətbuatda yayımlanması üçün hüquq-mühafizə orqanları və Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən sosial çarxlar hazırlana bilər. Həmin çarxlar vasitəsilə cinayət barədə müraciətin faydaları (kompensasiyanın əldə edilməsi, cinayətkarın tutularaq cəmiyyətdən müvəqqəti olaraq kənarlaşdırılması və s.) ictimaiyyətə çatdırıla bilər. Məsələn, mümkündür ki, maddi itkiyə məruz qalan zərərçəkən şəxs kompensasiya əldə etmək prosesi və imkanı barədə məlumatsız olsun.

Bununla yanaşı, sorğu göstərdi ki, respondentlərin bir çoxu cinayətdən zərər çəksə də, kimə və necə müraciət etməli olduğunu bilmir. Bu problemi nəzərə alaraq, müraciətin formaları və mexanizmləri barədə informasiya Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, həmçinin tənzimləyici və nəzarətedici qurumların saytlarında da yerləşdirilə bilər ki, bu barədə növbəti təklifdə daha ətraflı yazılıb.

### 3. Onlayn müraciət portalının hazırlanması

Cinayət hadisəsi barədə onlayn müraciət portalının hazırlanmasına ehtiyac var. Bu təcrübə müxtəlif formalarda Türkiyədə və Böyük Britaniyada mövcuddur. Onlayn portalın üstünlüyü ondan ibarətdir ki, o, qaynar xəttə düşən yükü müəyyən qədər azaldır, bəzən isə zəngləri müvafiq şöbələrə yönləndirməklə daha optimal nəticənin əldə edilməsinə xidmət edir. Belə ki, məsələn, Böyük Britaniyada maliyyə dələduzluğundan zərər çəkən, yaxud hadisənin şahidi olan şəxslər bu barədə informasiyanı portala daxil etdikdə sistem ona spesifik olaraq hansı idarəyə zəng etməli olduğunu göstərir. Bununla da polis orqanlarının iş yükü müəyyən qədər azalır, cinayəti araşdırmağa daha uyğun olan qurum məsələ ilə maraqlanır. Çünki bütün cinayət növləri üzrə yalnız polis orqanlarına müraciət etmək müraciətin nəticəsiz, yaxud qane etməyən formada yekunlaşmasına səbəb ola bilər.

### 4. Mülkiyyət əleyhinə cinayətlər əsas kriminogen problem kimi

Oğurluq sağlamlıq əleyhinə cinayətlərə nisbətdə daha geniş yayılmış cinayət əməli kimi qarşıya çıxır. Bu, qonşu ölkələrdə də belədir. Ölkəmiz üçün həm viktimi-

zasiya sorğusu, həm də rəsmi statistika bunu təsdiq edir. Oğurluq hallarının azaldılması əsasən maddi və iqtisadi vəziyyətin yaxşılaşdırılmasından asılıdır ki, bu da hüquq-mühafizə orqanlarının səlahiyyəti çərçivəsində deyil. Bu, əsasən hökumətin iqtisadi blokunda qərarlaşan qurumların məsuliyyətidir. Lakin hüquq-mühafizə orqanları tərəfindən bu istiqamətdə bir neçə addım atıla bilər.

Əvvəla, infrastruktur cəhətdən cinayət hallarına "əlverişli" olan ərazilərin müəyyənləşdirilməsinə ehtiyac var. Başqa sözlə, işıqlandırılma problemi olan küçələr, sakinlərin bir-biri ilə sıx əlaqəsinin olmadığı ərazilərdə kriminogen durum, adətən, daha mənfi olur. Hüquq-mühafizə orqanlarının təşəbbüsü əsasında həmin ərazilərin fiziki cəhətdən abadlaşdırılması və əhali arasında sosial fəaliyyətin təşviqi digər müvafiq qurumlar tərəfindən həyata keçirilə bilər. Polislə vətəndaş arasında münasibətlərin daha da yaxınlaşdırılmasına ehtiyac var. Bu halda ərazidə daha ciddi polis nəzarəti ilə yanaşı, sosial nəzarət də güclənir. İngilisdilli ədəbiyyatda intensiv şəkildə öyrənilən "community policing" prinsiplərinin ölkəmizdə tətbiqinə ciddi ehtiyac duyulur.

**5.**Viktimizasiya sorğusu keyfiyyətsiz qida və ya içki almaqdan zərərçəkmə hallarının heç də az yayılmadığını göstərdi. Belə halların sayının minimallaşdırılması hüquq-mühafizə orqanları ilə yanaşı, nəzarətedici agentliklərin də səylərinin artırılmasını tələb edir. 2017-ci ildə yaradılan Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən qida məhsullarının təhlükəsizliyinə və qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin fəaliyyətinə nəzarətin daha da gücləndirilməsinə ehtiyac var. Nəzarət ilə yanaşı, zərərçəkən vətəndaşların AQTA-ya müraciətinin təşviqinə ehtiyac var. Bununla yanaşı, qeyd etməliyik ki, son üç il ərzində fəaliyyət göstərməkdə olan AQTA müntəzəm qaydada yoxlamalar keçirir və mümkündür ki, məhz həmin yoxlama-nəzarət tədbirləri nəticəsində bir çox keyfiyyətsiz qida və ya içki almaqdan zərərçəkmənin qarşısı alınıb.

## QEYDLƏR

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69
info@stm.az    www.stm.az